AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

# Ümumi təhsil pilləsinin ibtidai, ümumi orta və tam orta təhsil səviyyələrinin eksternat təhsilalma formasında vaxtından əvvəl bitirilməsi

# Normativ hüquqi baza

- «Təhsil haqqında» Azərbaycan Respublikasının Qanununda göstərilmişdir ki, sərbəst (eksternat) təhsil müxtəlif səbəblərdən ümumi təhsildən kənarda qalan şəxslərə təhsil almaq və ya təhsilalana ümumi təhsilin hər hansı pilləsini vaxtından əvvəl bitirmək hüququ verən təhsilalma formasıdır.
- « Ümumi təhsil pilləsinin ibtidai, ümumi orta və tam orta təhsil səviyyələrinin eksternat təhsilalma formasında vaxtından əvvəl bitirilməsi Qaydaları» Azərbaycan Respublikası təhsil nazirinin 1 may 2015-ci il tarixli 537 nömrəli əmri ilə təsdiq edilmişdir.

# Təhsil səviyyəsini kimlər vaxtından əvvəl bitirə bilər?

- Ümumi təhsil üzrə təhsil səviyyələrini vaxtından əvvəl bitirmə yalnız ibtidai təhsildə III, ümumi orta təhsildə VIII, tam orta təhsildə X sinif şagirdlərinə şamil olunur.
- Hər hansı bir şagird ümumi təhsil pilləsində oxuduğu müddətdə təhsil səviyyələrindən yalnız birini vaxtından əvvəl bitirə bilər.

# Təhsil səviyyəsini kimlər vaxtından əvvəl bitirə bilər?

- Ümumi təhsil üzrə təhsil səviyyələrini vaxtından əvvəl bitirmə yalnız ibtidai təhsildə III, ümumi orta təhsildə VIII, tam orta təhsildə X sinif şagirdlərinə şamil olunur.
- Hər hansı bir şagird ümumi təhsil pilləsində oxuduğu müddətdə təhsil səviyyələrindən yalnız birini vaxtından əvvəl bitirə bilər.

# Şagirdin hər hansı təhsil səviyyəsini vaxtından əvvəl bitirməsinə əsas verən başlıca keyfiyyətlər

- Fiziki sağlamlıq və psixoloji dayanıqlıq.
- Qeyri-standart düşünmə.
- Tədris materiallarını asan və şüurlu  mənimsəmə.
- Yaş səviyyəsinə uyğun İKT bacarıqlarına yiyələnmə.
- Xarici dili sərbəst öyrənmə.
- Aydın, rabitəli nitq və çevik təfəkkür.

- Şagirdin bu və ya digər təhsil səviyyəsini vaxtından əvvəl bitirməsi barədə məsələ hər il dekabr ayından gec olmayaraq qaldırılır.
- Şagirdin müvafiq təhsil səviyyəsini vaxtından əvvəl bitirməsi barədə məsələsinə baxılması üçün ibtidai təhsil səviyyəsi üzrə sinif müəllimi və məktəb psixoloqu, yuxarı təhsil səviyyələri üzrə isə müvafiq fənn müəllimləri (dil-ədəbiyyat, xarici dil, riyaziyyat, fizika, kimya, biologiya, tarix, coğrafiya, informatika) və məktəb psixoloqu məktəbin direktoruna əsaslandırılmış birgə təqdimat ünvanlayırlar.
- Övladının müvafiq təhsil səviyyəsini vaxtından əvvəl bitirməsi haqda məsələ valideynin iştirakı ilə Pedaqoji Şurada müzakirə olunub müvafiq qərar qəbul edilir.

- Şagirdin müvafiq təhsil səviyyəsini vaxtından əvvəl bitirməsi barədə məsələsinə baxılması üçün ibtidai təhsil səviyyəsi üzrə sinif müəllimi və məktəb psixoloqu, yuxarı təhsil səviyyələri üzrə isə müvafiq fənn müəllimləri (dil-ədəbiyyat, xarici dil, riyaziyyat, fizika, kimya, biologiya, tarix, coğrafiya, informatika) və məktəb psixoloqu məktəbin direktoruna əsaslandırılmış birgə təqdimat ünvanlayırlar.

- Övladının müvafiq təhsil səviyyəsini vaxtından əvvəl bitirməsi haqda məsələ valideynin iştirakı ilə Pedaqoji Şurada müzakirə olunub müvafiq qərar qəbul edilir.

- Yerli təhsili idarəetmə orqanı həmin təqdimatla əlaqədar əmrlə mütəxəssislərdən ibarət komissiya təşkil edir.

- Komissiya şagirdin növbəti sinifdə təhsil almasını şərtləndirən hazırlıq səviyyəsini aidiyyəti fənlər üzrə tərtib olunmuş suallar, eləcə də müsahibələr əsasında yoxlayıb onun müvafiq təhsil səviyyəsini vaxtından əvvəl bitirib növbəti sinifdə təhsil ala bilməsi imkanları barədə əsaslandırılmış pedaqoji-psixoloji rəy hazırlayır.

- Yoxlamanın nəticəsi müsbət olduğu halda, komissiyanın rəyinin bir nüsxəsi yerli təhsili idarəetmə orqanının rəhbərinin məktubu ilə Təhsil Nazirliyinə göndərilir.
- Şagirdin ümumi hazırlıq səviyyəsi, psixoloji dayanıqlığı, idraki inkişafı müəyyən olunmuş vaxtda Təhsil Nazirliyinin təyin etdiyi mütəxəssislər qrupu tərəfindən təkrar araşdırılır və yekun rəy Təhsil Nazirliyinin rəhbərliyinə təqdim edilir.
- Həmin rəyə görə, şagirdin müvafiq təhsil səviyyəsini vaxtından əvvəl bitirməsi tövsiyə olunursa, bu barədə aidiyyəti yerli təhsil idarəetmə orqanına məktub göndərilir.
- Şagirdin ümumi hazırlıq səviyyəsi, psixoloji dayanıqlığı, idraki inkişafı müəyyən olunmuş vaxtda Təhsil Nazirliyinin təyin etdiyi mütəxəssislər qrupu tərəfindən təkrar araşdırılır və yekun rəy Təhsil Nazirliyinin rəhbərliyinə təqdim edilir.
- Həmin rəyə görə, şagirdin müvafiq təhsil səviyyəsini vaxtından əvvəl bitirməsi tövsiyə olunursa, bu barədə aidiyyəti yerli təhsil idarəetmə orqanına məktub göndərilir.

- Həmin məktub əsasında şagirdin ikinci yarımildən etibarən növbəti sinifdə təhsilini davam etdirməsinə razılıq verilməsi barədə məktəbin rəhbərliyi yazılı məlumatlandırılır və məsələ məktəb direktorunun əmri ilə rəsmiləşdirilir.
- Ümumi orta və tam orta təhsil səviyyələrini vaxtından əvvəl bitirən şagirdlərin müvafiq olaraq VIII və X sinif üzrə illik qiymətləri onların birinci yarımildə aldıqları qiymətlər hesab olunur.